# Mavi don

*hekayə*



Reyhan YUSİFQIZI



Qapının zəngi çalındı. Qapı arxasında anasının və bacısı Leylanın səs-küyünü eşidən Səid tələsik qapını açdı. Anası qaşqabaqlı halda dinməzcə içəri keçib paltosunu soyundu. Leyla isə yerə çömbələrək ağladı. Səid bacısını qucaqlayıb sakitləşdirməyə çalışdı, ona paltosunu, papağını və çəkmələrini çıxarmağa kömək elədi. Təzə çəkdiyi rəsmləri verib başını qatdı. Sonra mətbəxə keçib yavaşca anasından soruşdu:

Yenə həmin məsələdir?

Anası köksünü ötürüb başını tərpətdi.

...Səidin atası üç il əvvəl Qarabağda həlak olmuşdu, Şəhidlər xiyabanında dəfn olunmuşdu.

Anası tez-tez onları xiyabana aparır, qəbri ziyarət edib üstünə gül qoyurdular. Səid hər dəfə ora gedəndə ürəyi döyünür, bədəni əsirdi. O, öz həyəcanını gizlətmək, nə vəziyyətə düşdüyünü bildirməmək üçün anası ilə bacısını qabağa buraxaraq arxada gedirdi. Anasının üzünə isə baxmağa belə cəsarət etmirdi; bilirdi ki, o səssizcə ağlayır, aramsız axan göz yaşlarını cib dəsmalı ilə tez-tez silir...

Atalarını itirdikdən sonra onların həyatı xeyli dəyişdi, güzəranları çətinləşdi. Xeyirxah adamlar anasına işə düzəlməyə kömək etdikdən sonra çox müşkül axara düşdü. Onlar səhər tezdən bir yerdə evdən çıxırdılar. Səid məktəbə, anası isə Leylanı bağçaya qoyub işə gedirdi. Günorta Səid dərsdən evə qayıdıb qapını açır, nahar edir, dincəlir, sonra dərslərini oxumağa başlayırdı. Saat altıda isə anası Leylanı bağçadan götürüb evə qayıdırdı.

Səid özünü evin kişisi sayır, anası ilə bazara gedəndə zənbilləri daşıyır, ümumiyyətlə, bütün ağır işləri özü görməyə çalışırdı. Bir dəfə o, anasının siyahı tutduğunu, maaşını və onlara verilən müavinəti gələn ayadək necə xərcləyəcəyini fikirləşdiyini görüb dedi:

Ana, bəlkə mən də işləyim? Pul qazanıb sənə kömək edərəm.

Anası təəccübləndi:

Necə işləyəsən?

Məsələn, küçədə xırda alver...

Nə?! Elə şeyləri ağlına belə gətirmə! Sənin işin oxumaqdır - əvvəl orta məktəbi, sonra da ali məktəbi!

Səid anasının belə əsəbiləşəcəyini gözləmirdi. Onun dən düşmüş qara saçlarına, cazibədar üzünə, əsəbdən titrəyən əllərinə baxıb fikirləşdi: "Anam çox işləyir, yorulur, ona görə də əsəbidir. Həm də atamı çox sevirdi..."

Axşam anası bu söhbətin üstünə bir də qayıtdı. O, oğlunun çiyinlərini qucaqlayıb, düz gözlərinin içinə baxdı. Mülayim və qətiyyətli səslə dedi:

- Ağıllı balam, hələlik işlərimiz o qədər də pis deyil. Camaat çadırlarda qaçqın həyatı yaşayır, yeməyə çörək tapmır. Bizim ev-eşiyimiz, vacib olan hər şeyimiz var. Sən də, bacın da əvvəl oxuyacaqsınız, sonra işləyəcəksiniz. Hər şey yaxşı olacaq.

Səid anasını qucaqlayıb başını onun sinəsinə sıxdı. Leyla da onlara qoşuldu...

Gözəl bir yaz axşamı idi. Leyla ilə Səid analarını dilə tutub gəzməyə getməyə razı salmışdılar. Səid üç ildən bəri əyləncə yerlərindən uzaq gəzən, işdən və bazardan başqa heç yerə getməyən anasının həvəslə geyindiyini, Leylanın saçlarını darayıb hördüyünü görüb sevindi. Onlar evdən bir qədər aralıdakı parka yollandılar...

Hava azca qaralmışdı. Onlar gəzintidən razı halda yavaş-yavaş evə qayıdırdılar. Arxada qalıb ayaqlarını sürüyə-sürüyə gedən Leyla fəvvarələrin ətrafında o ki var qaçıb yorulsa da, evə getmək istəmir, "bəlkə bir az da buralarda gəzək", deyirdi. Rəngli işıqlarla bəzədilmiş qalın şüşəli böyük vitrinin qarşısından keçəndə, birdən qızcığazın diqqətini nəsə cəlb etdi. O, heyrətdən gözlərini geniş açaraq arxaya çəkildi, sonra isə irəli cumub, əllərini və burnunu şüşəyə dirəyib diqqətlə baxmağa başladı:

Nə gözəl dondur! Səid, bax! Ana, ana, bir bax!

Zərif krujeva və xırda bantlarla bəzədilmiş mavi rəngli uşaq paltarı çox qəşəng idi. Donun beli sıxılmış, enli ətəyinin bir ucu dartılıb qoluna bərkidilmişdi. Ağ, mavi işıqların əksi donun üstündəki gümüşü pulcuqlarda oynayaraq bərq vurur, vitrindən ətrafa yayılır və Leylanın gözlərində işıldayırdı. Onlar vitrinin qarşısında xeyli ləngidilər. Leyla heç cür bu qəşəng paltara baxmaqdan doymurdu. Səid bacısını soyuq şüşədən güclə ayırdı. Evə çatanadək yol boyu o, mavi paltarın gözəlliyindən danışdı, onu hər təfsilatı ilə yada saldı.

O gündən bir həftə keçmişdi. Hər gün evə qayıdanda Leyla vitrinin qarşısından əl çəkmir, mavi dona baxır, baxır, evə getmək istəmirdi. Uşaq anasından heç bir şey tələb etməsə də, hər şey aydın idi. Bu mavi don onun üçün əlçatmaz arzuya çevrilmişdi.

Bir gün Səid dərsdən qayıdarkən, mağazaya girib paltarın qiyməti ilə maraqlandı. Onu Leylaya almaq barədə anasına dedikdə, belə bir cavab eşitdi:

Qiymətlə mən də maraqlanmışam. 50 manat bir o qədər böyük pul olmasa da, ala bilmərik. Sizə daha vacib şeylər lazımdır. Leylanın isti jaketi yoxdur, sənin çəkmələrin köhnəlib.

Ertəsi gün Səid yenə dərsdən evə qayıdırdı. O, vitrinin qarşısında ayaq saxlayaraq neçə vaxtdan bəri onların evlərinə narahatlıq gətirmiş qəşəng mavi paltara baxdı. Bu zaman mağazanın qarşısına bahalı bir avtomobil yaxınlaşıb dayandı. Qara bığlı, bəstəboy kişi maşından düşərək mağazaya daxil oldu. Onun özünü aparmasından, əlini belinə qoyub satıcı qıza göstərişlər verməsindən aydın idi ki, bu mağazanın müdiridir. Səid tələsik içəri keçib kişiyə yaxınlaşdı. Ciddi surətdə salam verib dedi:

Bəlkə mənə bir iş verəsiniz? Pul qazanmaq istəyirəm...

Kişi güldü:

Demək işləmək istəyirsən, Atan, anan buna nə deyir?

Səid dinmədi. Onları uzaqdan-uzağa tanıyan satıcı qız işarə ilə başa saldı ki, uşağın atası yoxdur. Kişi bir az ciddiləşdi.

Yaxşı, bəs qazandığın pulu neyləyəcəksən? Bəlkə anandan gizlin işlərin var?

Səid barmağını mavi dona tuşlayıb qətiyyətlə dedi:

O paltarı bacıma almaq istəyirəm!

Mağazanın müdiri bir az fikirləşdi. Səid intizarla onun üzünə baxır, nə deyəcəyini gözləyirdi. Nəhayət, o, mağazanın qarşısında saxladığı maşını göstərib dedi:

O maşını ehtiyac olduqca beş-altı dəfə yusan, paltarı götürüb apara bilərsən.

Elə indi başlayım?

Kişi başını tərpətdi.

...Səid nazik, qara şlanqdan gələn soyuq su ilə səylə maşını yuyurdu. Çantasını və gödəkcəsini mağazanın qapısının yanında küncə qoymuş, qollarını və şalvarının balaqlarını çırmalamışdı. Ara-sıra ayağına su tökülməsinə, ayaqlarının islanmasına fikir vermirdi. "Anam gələnə qədər ayaqqabılarımı da, corablarımı da qurudaram", deyə fikirləşirdi. Sonra o, avtomobilin yük yerindən kiçik tozsoranı çıxarıb maşının içini də təmizlədi və işini qurtardı.

Bir neçə gün keçdi. Səid bu məsələni yalnız özünə dost saydığı Orxana danışdı; hər gün dərsdən qayıdarkən yolunu mağazanın qarşısından salmasının səbəbini izah etdi. Orxan onun dediklərinə şübhə ilə yanaşdı, özünə məxsus əda ilə dəlillər gətirərək, "müdir səni aldadır, işlədəcək, heç bir şey də verməyəcək", deyə israr etdi və Səidi bu işdən çəkindirməyə çalışdı. Lakin buna nail olmadı.

Səhər yuxudan duranda gecə bərk yağış yağdığını görən Səid sevindi: "Hər tərəf palçıqdır, yəqin maşını yenə yumaq lazımdır". Dərsdən çıxan kimi o, Orxanla birlikdə qaça-qaça mağazaya getdi. Orxan yenə bütün yolu danışdı, Səidin böyük səhv etdiyini sübut etməyə çalışdı. Sözünün eşidilmədiyini gördükdə isə dostunu tək qoymamağı, ona kömək etməyi qərara aldı. O, şlanqı maşının üzərində gəzdirir və onu elə tutmağa çalışırdı ki, Səidin ayağına su tökülməsin. Bu dəfə işi daha tez qurtardılar.

Bir həftə də keçdi. Leyla əvvəlki kimi çox şıltaqlıq etməsə də, mavi donu ara-sıra yenə yada salırdı. Səid gizlicə ona demişdi ki, əgər özünü yaxşı aparsan, o donu sənə alacağam.

Bir gün Səid yenə dərsdən evə qayıdırdı. Orxan məktəbə gəlmədiyindən o tək idi. Mağazanın qarşısına çatanda gözlərinə inanmadı: ona yaxşı tanış olan maşının yanında sanki onun eyni olan başqa bir maşın da dayanmışdı. Diqqətlə baxıb gördü ki, ikinci maşının rəngi azacıq fərqlənir. Səid mağazaya daxil oldu. Satıcı qız onu görən kimi dedi:

Müdir otağındadır. Səni soruşurdu.

Səid qapını döyüb otağa keçdi. Müdir ona iki açar verdi.

Bu gün işin çox olacaq. Dostumun maşınını da sənə həvalə edirəm.

O gün Səid evə çox yorğun qayıtdı. Donmuş barmaqları sözünə baxmadığından, açarla qapını çətinliklə açdı. Nahar etməmiş yerinə uzanıb üstünü yorğanla bərk-bərk örtdü. Üşüyürdü...

Beş gün idi ki, Səid evdə xəstə yatırdı. Sahə həkimi onun ciyərlərinə qulaq asan kimi diaqnoz qoymuşdu: "sətəlcəm". Anası bülletenə çıxaraq özü ona qulluq edir, iynələrini vaxtlı-vaxtında vurur, dərmanlarını içizdirdi. Orxan hər gün onu yoluxmağa gəlir, məktəbdəki təzə xəbərləri danışır, dərslərin yerini göstərir, fürsət düşdükcə mağaza müdirini də söyüb yamanlayırdı. Səid, adətən, ona cavab vermir, narahatlıqla fikirləşirdi: "Təki tez sağalım. Bircə dəfə də maşını yusam, qurtarıb gedər..."

Bir gün Orxan yenə onlara gəldi. Birbaşa Səidin otağına girib qapını örtdü və yavaşdan dedi:

Müdir məndən səni soruşdu.

Səidin ürəyi qopdu:

Doğrudan?! Nə dedin?

Orxan özündən razı halda güldü:

Nə lazım idisə, dedim. Dedim sizin ucbatınızdan Səid xəstələnib, sətəlcəm olub. Bu soyuqda da uşağa maşın yuduzdurarlar? Utanmır...

Səid hirsindən qıpqırmızı oldu:

Sən nə etmisən? Bütün işləri korlamısan ki! Mənim bütün əziyyətlərim hədər getdi!

O qeyri-ixtiyari yanındakı kitabı götürüb var gücü ilə Orxana tərəf tulladı. Orxan vaxtında aşağı əyildiyindən, kitab divara çırpılıb vərəq-vərəq oldu. Bu zaman qapını açan ana təəccübdən yerindəcə donub qaldı. Orxan qapının arasından sivişib gedəndən sonra anası nə qədər sual verdisə, Səid bir söz demədi: "Dalaşdıq, vəssalam". O gündən sonra Orxan ona baş çəkməyə gəlmədi və sağalıb məktəbə gedəndə də, Səid onunla danışmadı.

Ürəyi döyünə-döyünə mağazaya yaxınlaşan Səid nə deyəcəyini götür-qoy edirdi. "Orxan işlərimi yamanca korladı. Bircə dəfə də maşını yuyacaqdım, vəssalam. İndi isə... Müdir yəqin məni qovacaq". Maşın mağazanın qarşısında yox idi. Səid könülsüz içəri keçdi. Satıcı qız onu görən kimi çağırdı: "Haradasan, balası?" Səid ağzını açıb cavab vermək istəyəndə isə onun sözünü kəsdi: "Məndə sənə çatacaq bir şey var". O, səliqə ilə qızılı kağıza bükülmüş və mavi lentlə bağlanmış iri qutunu piştaxtanın üstünə qoydu. Təəccübdən Səidin ağzı açıq qalmışdı. O kəkələdi:

Nədir bu?

Necə nə? Sənin almaq istədiyin mavi don. Müdir özü dedi ki, qəşəng büküb sənə çatdırım.

Səid qucağında iri bağlama mağazadan çıxanda sanki uçurdu. Bacısının necə sevinəcəyini təsəvvür etdikcə, özündən asılı olmayaraq gülümsəyirdi. Əlbəttə, anasına hər şeyi izah etməli idi. "Yəqin ki, anam məni bağışlayar. Bir də ki, Orxanla barışmalıyam...".